# *YENİ ƏSƏRLƏR, DƏRSLİK VƏ DƏRS VƏSAİTLƏRİ*

## "PEDAQOGİKA: MÜNTƏXƏBAT"

"Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz"

**Heydər Əliyev**
***Ümummilli lider***

"Biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevrilməliyik. Çünki insanın savadı, biliyi onun gələcək həyatını müəyyən edir, ölkənin hərtərəfli inkişafına xidmət edir və beləliklə, ölkənin intellektual potensialını da möhkəmləndirir"

**İlham Əliyev**
***Azərbaycan Respublikasının Prezidenti***

Virtual texnologiyalar sivilizasiyanın son nailiyyətlərindən olaraq insanların gündəlik həyatlarına sürətlə daxil olmaqda, hər bir sahənin ənənəvi səciyyəvi xüsusiyyətlərinə müdaxilə etməkdə, yaşam tərzimizə yön verməkdən çox, onun tənzimləyicisinə çevrilməkdədir. Belə bir vəziyyətdə xüsusilə elm, təhsil sferası gözlənilən və gözlənilməyən yeniliklərin gətirdiyi kreativ yanaşmalarla müşayiət olunur. İndi təhsil sferasında alternativ elmi-pedaqoji ədəbiyyatların çoxaldığı, hər cür elektron materialların saysız-hesabsız variantlarının bolluğu sanki tələbələr üçün sistemli mənimsənilən tədris materiallarından çox, xaos yaratdıqları bir vaxtda köməkçi ciddi dərsliklərə, vəsaitlərə... ehtiyac vardır.

Məlumdur ki, ölkəmizdə ali təhsil müəssisələrində elmin bütün sahələri üzrə peşəkar alimlər tərəfindən yazılmış ciddi monoqrafiyalar, dərsliklər az deyildir. Amma pedaqogika üzrə elmlər doktoru, professor, Əməkdar müəllim ***Akif Abbasovun*** fəlsəfə doktorları ***Rəhiməxanım Məmmədzadə*** və ***Lalə Məmmədli*** ilə birlikdə müəllif-tərtibçi olduğu ***"Pedaqogika: Müntəxəbat***" dərs vəsaitində elmi-pedaqoji dərsliklərin, monoqrafiyaların materiallarından, zamanında ciddi qarşılanmış məqalələrdən, müxtəlif məzmunlu kitablardan istifadə edilmiş, seçmələr verilmişdir. Məqsəd bundan ibarətdir ki, təhsilalan və təhsilverənlər elmi-pedaqojinin ən zəruri sahələri üzrə materiallar üçün müxtəlif ədəbiyyatları axtarıb tapmağa, kompüter yaddaşında vaxt itirməyə çalışmasınlar. Ən vacib əsərlərdən seçmələrin toplandığı bu çox gərəkli dərs vəsaiti geniş pedaqoji ictimaiyyət üçün nəzərdə tutulmuşdu.

Müntəxəbat Azərbaycan pedaqoqlarının möhtəşəm pleyadasının əksəriyyətini əhatə etməklə, ciddi elmi-tədqiqatlara nəzər salmaq baxımından elmi-publisistik hadisə olaraq dəyərləndirilə bilər. Öncə müəlliflərə nəzər salaq: təxminən 41 müəllifin qırx fəsildə, 157 elmi tədqiqat işi toplamışdır. On müəllifin 3-dən çox məqaləsinə yer ayrılmışdır: Akif Abbasovun; Əbdül və Hikmət Əlizadələrin, Əmrulla Paşayevlə – Fərrux Rüstəmovun, Firəddin İbrahimovla – Rüfət Hüseynzadənin əsərlərindən seçmələrə daha çox yer verilmişdir.

Əsərin I bölməsində yəni pedaqogikanın ümumi əsaslarının əhatə olunduğu 3 fəsildə pedaqogika elmi kimi 6 seçmə əsər, pedaqoji metod və tədqiqat metodları 4 seçmə əsər, şəxsiyyətin formalaşması və inkişafı isə 4 seçmə əsər təmsil olunmuşdur.

II bölmə didaktika adlanır və burada 16 fəsildə didaktikanın ümumi əsasları üzrə – 3, təhsil nəzəriyyəsi üzrə – 7; təhsilin məzmununu əks etdirən sənədlər – 5; pedaqoji proses, onun quruluşu və texnologiyası – 5; təhsil standartları və təhsil kurikulumları – 6; təhsildə monitorinq və qiymətləndirmə – 3; təlimin nəzəri əsasları, təlimin prinsipləri və metodları, eləcə də təlim prosesində ənənəvi və müasir yanaşmalar və priyomları – 19; təhsil Y.A. Komenskinin anlamında – 3, təlimin təşkili formaları – 12; pedaqoji ekspertiza, diaqnostika və taksonomiya – 6 seçmə əsərlə təmsil olunmuşdur.

Tərbiyə nəzəriyyəsi və metodikası adlanan III bölmədə 18 fəsildə 40 mövzu üzrə seçmələr

verilmişdir: Bu bölmədə həmçinin Azərbaycan müəllimi fəslində – 3; Sinif rəhbəri. Şagird kollektivinin təşkili və tərbiyəsi üzrə – 3; şagirdlərdə sinifdənxaric və məktəbdənkənar iş üzrə – 4; ailə ilk tərbiyə və təhsil ocağı kimi – 6; məktəb və ailənin birgə fəaliyyəti, ailəyə dəstək təşkilatları və orqanları üzrə – 6 və pedaqoji fikir tarixi üzrə – 8 seçmə əsər yer almışdır. Nəhayət, müntəxəbatın sonuncu bölməsində – məktəbi idarəetmə və ona rəhbərlik bölməsində iki fəsildə, yəni məktəbşünaslığın nəzəriyyəsi və texnologiyası üzrə – 7, məktəbdə metodik iş, müəllimlərin ixtisasının artırılması və attestasiyası fəsillərində – 9 seçmə mövzu verilmişdir.

İndi isə müntəxəbatda toplamış bəzi materialların geniş pedaqoji ictimaiyyət üçün mühüm əhəmiyyətlilərindən bəzilərinə diqqət yetirək;

Tərbiyə nəzəriyyəsi və metodikası bölməsinin giriş mahiyyətli fəslində tərbiyənin ümumi məsələləri fəsli tanınmış pedaqoq, pedaqogika elmlər doktoru, professor Əliheydər Həşimovun aşağıdakı fikirləri ilə başlayır. “Tərbiyənin tarixi insan cəmiyyəti qədər qədimdir. Cəmiyyətin inkişafı tarixində elə bir dövr olmuşdur ki, orada yaşlı nəslin nümayəndələri gənc nəslin tərbiyəsi qayğısına qalmamış olsun, lakin müxtəlif zamanlarda, müxtəlif inkişaf mərhələlərində tərbiyənin mahiyyəti xarakteri və uşaqlara aşılanması yolları eyni səviyyədə olmuşdur”. Müxtəlif dövrlərdə təlim-tərbiyə müəssisələri yarandıqdan sonra nəzəri tərbiyə ənənələrinin yaranmasından, o cümlədən Azərbaycanda XIX əsrdək mövcud olmuş ərəbdilli müsəlman təhsilindən, Rusiya işğalı dövrü rusdilli Çar və Sovet təhsilindən, eləcə də müstəqillik dövrü ana dilli təhsilin spesifikasından bəhs edilir.

Təlim metodlarının yeniləşdirilməsi pedaqogikanın ən aktual problemlərindən biridir. Təlim prosesinin mərkəzi komponentlərdən biri olmaqla təlim metodları müəllimlərlə şagirdlərin birgə fəaliyyətini sıx əlaqələndirir. Bu əlaqənin yüksək pedaqoji dəyəri isə təlim metodlarının yeniləşməsindən, təkmilləşdiriıməsindən və səmərəli tətbiqindən çox asılıdır. Müasir tələblərə əsasən, təkcə təlimin məzmununu deyil, həm də onun metodlarını yeniləşdirmək tələb olunur ki, şagirdlərin idrak fəaliyyəti aktivləşsin, onlarda əməyə, istehsalat və ictimai vəzifələri yerinə yetirməyə yaradıcılıqla yanaşa bilmək bacarığı yaransın. Bu mənada Azərbaycanın keçmiş maarif naziri, akademik ***Mehdi Mehdizadənin*** müntəxəbata daxil olmuş “Təlim metodlarının yeniləşdirilməsi” hissəsi sovet dönəmində çox məşhur olmuş, “Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları” əsərindəndir. Tədqiqat metodundan bəhs edən müəllif yazır: “Təlim metodu anlayışı. Təlim metodu anlayışının aydın dərk edilməsi çox mühüm məsələdir. Bu həm təlim üsullarının təsnifatını düzgün müəyyənləşdirmək, həm də onların didaktik vəzifələrlə əlaqədar təlim prosesinə lazım olanlarını düzgün seçmək üçün zəruridir” ...Təlim metodunun mahiyyətini, şagirdlərin fəaliyyətini hesaba almadan, müəllimlə şagirdlərin fəaliyyətləri arasındakı qarşılıqlı əlaqəni nəzərə almadan aydın başa düşmək çətindir.... Təlim metoduna verilən tərifi bir qədər dəqiqləşdirmək istərdik: Təlim metodu müəllim və şagirdlərin qarşılıqlı fəaliyyəti qaydaları sistemidir ki, müxtəlif vasitələrdən istifadə etməklə təlim prosesində didaktik vəzifələrin həllinə xidmət edir. Bu tərifi daha münasib hesab edirik, ona görə ki, burada həm hərəkət edən tərəflərin fəaliyyət qaydaları, həm istifadə edilən va-sitələr, həm tərəflərin qarşılıqlı əlaqələri, həm də onların fəaliyyətinin məqsədi, həm də fəaliyyətin cərəyan etdiyi yer *(təlim prosesi)* göstərilir”.

Akad. M.M. Mehdizadə adı çəkilən əsərdə daha sonra yazırdı: “Təlim metodlarının təsnifatını aşağıdakı qaydada verməyi münasib bilirik:

1. Məlumatvermə metodları.
2. Əyanilik metodları.
3. Reproduktiv metodlar.
4. Axtarış metodları.
5. Nəzarət metodları və s.”.

Müntəxəbatdakı tələbələr üçün maraqlı və gərəkli olan bir məsələ də təhsillə bağlı fəsildə professor ***Müseyib İlyasovun*** “Təhsil prosesinin məntiqi strukturu haqqında” elmi məqaləsidir. Məqalədə müasir təhsil nəzəriyyəsində əsas və prinsipial məsələlərdən biri olaraq biliklərin mənimsənilməsi prosesinin strukturunun necəliyi və nələrdən asılılığı problemindən bəhs edilir. Müəllif mənimsəmə prosesinin nəzəriyyəsi kontekstində qavranma, anlama, dərketmə, ümumiləşdirmə və tətbiqi mərhələlərinin nəzəri təhlilini aparmış, yeni biliklərin verilməsi prosesində iki məsələni; məlumatı qavranmanın psi-

xoloji əsası və nəzəri qavranılması xüsusi olaraq vermişdir.

Müəllif sonra yazır: "Biliklərin praktikaya tətbiqi zamanı isə biliklərin möhkəmləndirilməsi, bilik, bacarıq və vərdişlərin tətbiqi, biliklərin tətbiqinə nəzarət zamanı isə şagirdlərin işlərinə nəzarət həyata keçirilir, onların bu prosesə yiyələnməsi prosesi izlənilir. Beləliklə, araşdırmalar göstərir ki, müasir dövrdə təhsil prosesinin məntiqi strukturu digər təsnifatlardan və formulalardan fərqli olaraq məhz Blüm taksanomiyasının modifikasiya olunmuş yeni formasında daha nəzəri-praktik şəkildə öz ifadəsini tapır" (bax: s. 128-136).

Yeni gəlmişkən, müasir pedaqogikanın xüsusilə interaktiv təlimin təməllərindən olaraq Blüm taksonmiyası ilə bağlı məşhur psixoloq ***Əbdül Əlizadənin***, daha sonralar isə oğlu professor ***Hikmət Əlizadə*** və nəvəsi fəlsəfə doktoru ***Səbinə Əlizadə*** tərəfindən aparılan tədqiqatların, xüsusilə onun milli versiyasının əsaslandırılması ilə bağlı orijinal araşdırmaları müntəxəbatın 372-ci səhifələrində öz əksini tapmışdır. "Professor Əbdül Əlizadənin üçtərkibli tansonomiyası" adlı seçmə materialın Əlizadələrin bu sahədəki elmi araşdırmalarının tələblər üçün əlçatanlığı baxımından əhəmiyyətini qeyd etməliyik. Həmin əsərdə deyilir: "Prof. Ə.Ə. Əlizadə taksomomiyaların hazırlanması üçün zəruri prinsiplərlə bağlı aşağıdakı qənaətə gəlinmişdir. 1. Praktik istiqamətin; 2. Psixloji xüsusiyyətin; 3. Məntiqi ardıcıllığın; 4. Obyektiv yanaşmanın nəzərə alınması. Buradan çıxış edərək, bilik, anlama, tavrama-tətbiq, analiz-sintez, nəhayət, qiymətləndirmə kimi təlim məqsədlərinin 6 səviyyəsi müəyyənləşdirilmişdir. Bu qeydlərdən sonra müntəxəbatda mərhum Əbdül müəllimin üçtərkibli taksonomiyasının əsas istiqamətləri verilmişdir. Orada deyilir: "Müasir təhsil nəzəriyyəsinə görə, şəxsiyyətyönlü təlim prinsipi dərsdə üç yolla: dərsin didaktik məqsədləri; dərsin tərbiyə məqsədləri; dərsin inkişafetdirici məqsədləri ilə həyata keçirilir".

Üç tərkibli taksonomiyanın **(öyrənmə, inkişaf, mədəniyyət)** tərkib hissələrinin sistemini ayrı-ayrılıqda ətraflı nəzərdən keçirək:

Öyrənmə – bilik, bacarıq, vərdiş, xatırlama, anlama, tətbiq, qiymətləndirmə İnkişaf-analiz, sintez, müqayisə, ümumiləşdirmə, mücərrədləşdirmə, ağlın keyfiyyətləri, koqnitiv və kreativ proseslər. Mədəniyyət - hisslər mədəniyyəti, ünsiyyət mədəniyyəti, kommunikativ mədəniyyət, əxlaqi mədəniyyət, iradi mədəniyyət, milli-mənəvi mədəniyyət, dünyəvi mədəniyyət.

Üçtərkibli taksonomiyanın ilk və son variantı arasında fərq ondan ibarətdir ki, Azərbaycan taksonomiyasının I variantında təhsil və tərbiyə əsas anlam kimi təqdim edilir.

Taksonomiyanın II variantında təhsil məsələləri öyrənmə, tərbiyə məsələləri isə mədəniyyət paradiqmaları ilə açılır.

Professor Ə.Ə. Əlizadə qeyd edirdi ki, onun taksonomiyasında təlim məqsədləri ümumi ölçülərlə səciyyələndirilir. Nəzərdən keçirilən taksonomiya ayrı-ayrı fənlər və siniflər üzrə konkretləşdirilməli, ədəbiyyat və fizika fənni üzrə spesifik cəhətlər müəyyən edilməli və yaş xüsusiyyətləri baxımından açıqlanmalıdır.

Tərbiyə bölməsində verilmiş materiallar arasında akad. ***Hüseyn Əhmədovla*** birlikdə XX əsrin ikinci yarısı və XXI əsrin bir gərinəlik müstəqillik mərhələsində xüsusi məktəbləri ilə yadda qalmış prof. Nurəddin Kazımovun əsərlərindən verilən seçmələr də xüsusi yer tutur. Sovet imperiyasının süqutundan sonra elmi pedaqojinin nəzəri sistemləşməsinə yeni prizmadan yanaşan, ilk pedaqogika dərsliyini hazırlayan və Hüseyn Əhmədovun "Azərbaycan məktəb və pedaqoji fikir tarixi" kursunun əsasında müstəqil tədris-tədqiqat sahəsinin yaradılması ilə özünün məktəbini yaratmasına paralel olaraq "Milli pedaqogika" konsepsiyası ilə ***N. Kazımovun*** yeni tədris tədqiqat sahəsini təklif etməsi ciddi milli elmi-pedaqoji təşəbbüs idi.

Müntəxəbatda "Tərbiyənin tərkib hissələri" adlı seçmədə mərhum Nurəddin müəllimin onun aşağıdakı fikirləri bu gün də müasirliyi ilə seçilir: "Müasir dövrdə tərbiyənin bir sıra nisbi mənada tərkib hissələri formalaşaraq həyata vəsiqə qazanmışdır: dünyagörüşünün inkişaf et-dirilməsi, əxlaq tərbiyəsi, əmək tərbiyəsi, ideya-siyasi tərbiyə, fiziki tərbiyə, estetik tərbiyə, hüquq tərbiyəsi, iqtisadi tərbiyə, ekoloji tərbiyə, ağıl tərbiyəsi... Əxlaq tərbiyəsinin nümunəsində yuxarıda bildirdik ki, tərbiyənin hər bir tərkib hissəsi xeyli mənəvi keyfiyyətlərin formalaşdırılmasını özünə ehtiva edir. Fikirlərimizi dünyagörüşü və ağıl tərbiyəsi ilə əlaqədar bir daha konkretləşdirək.

Dünyagörüşünün formalaşdırılması ilə məşğul olan şəxs azı aşağıdakı mənəvi keyfiyyətlərdən hali olmalıdır:

1) ümumi vahid baxışların nədən ibarət olduğunu bilməlidir;

2) bu cür baxışların həm təbiət hadisələrini, həm cəmiyyət hadisələrini, həm də təfəkkür hadisələrini əhatə etdiyini yadda saxlamalıdır;

3) bu hadisələri başa düşməkdə vahid baxışların adamlara yar dımçı olduğunu, habelə həyatda onların fəaliyyətinə təsir göstərə biləcəyini diqqətdə saxlamalıdır və 4) bundan sonra həmin keyfiyyətlərin adamlarda formalaşmasına qayğı göstərməlidir" (s. 406-407).

Müntəxəbatda verilmiş maraqlı seçmələrdən biri də Rusiya Təhsil Akademiyasının akademiki professor ***Hümeyir Əhmədovun*** 2013-cü ildə nəşr edilmiş "Pedaqogika" dərsliyindən alınmış "Pedaqoji mədəniyyət" adlı materialdır.

Məlumdur ki, ümumbəşəri mədəniyyətin bir hissəsi olan pedaqoji mədəniyyət özünü daha çox mənəvi, maddi dəyərlərdə, bəşəriyyətə xidmət edən tarixi proseslərdə, nəsillərin dəyişməsində və şəxsiyyətin realizsiyasında əks etdirir. Bu mənada pedaqoji mədəniyyətin başlıca dəyəri uşağın inkişafı, təhsili, tərbiyəsi, sosial müdafiəsi, ləyaqət və hüquqlarının qorunmasıdır.

Müəllifin də qeyd etdiyi kimi "Pedaqoji mədəniyyət", yəni dəyərlər sisteminin dinamikası müəllim davranışının peşəkar fəaliyyət üsuludur. Pedaqoji mədəniyyət səviyyəsinin mühüm peşəkar keyfiyyətlərini aşağıdakı kimi xarakterizə edir:

1. Şəxsiyyətin istiqamətliliyi: yəni inamı, sosial fəallığı, vətəndaşlığı.

2. Peşəkar mənəvi keyfiyyətləri: humanizm, kollektivçilik, ədalətlilik, tələbkarlıq, sevgi və hörmət, prinsipiallıq və s.

3. Pedaqoji əməyə münasibəti: vicdanlılıq, məsuliyyət, pedaqoji işə bağlılıq, onu həyatının mənası hesab etməsi.

4 Mənəvi və maraqlı tələbatlar: yəni idrak fəallığı, təfəkkürün genişliyi, mənəvi tələbkarlıq, nitq mədəniyyəti..." (s. 493-499)

Müntəxəbatda ən vacib fəsillərdən biri "Ailə ilk tərbiyə və təhsil ocağı kimi" fəslidir. Burada pedaqogika üzrə elmlər doktoru, professor ***Akif Abbasovun*** "Pedaqogika", "Milli əxlaq və ailə etikası", "Ailə pedaqogikası" dərsliklərindən seçmələri xüsusilə maraqlıdır. "Ata və ana ilk tərbiyəçilərdir", "Uşaqların tərbiyəsində ananın rolu", "Uşaqların yaş böhranı və onun nəzərə alınması", "Məktəb və ailənin birgə fəaliyyəti" və s. yazılar orijinal fikirləri ilə seçilir. Ümumiyyətlə, müasir elmi-pedaqoji mühitdə Akif Abbasovun sistemli və ardıcıl olaraq ailə, uşaq, valideyn münasibətləri və s. sosial-pedaqoji araşdırmaları həmişə maraqla qarşılanmışdır. Bu materiallar da problemin ən vacib məqamları haqqında pedaqoji ictimaiyyətin maariflənməsində mühüm rol oynamışdır.

Müntəxəbatda məktəbşünaslığın nəzəriyyəsi və texnologiyası fəslində əsasən ***Əmrulla Paşayevlə Fərrux Rüstəmovun t***ədqiqatlarına geniş yer verilməsi təbiidir. İlk milli "Pedaqogika" dərsliklərindən birinin müəllifləri olaraq elmi pedaqogikanın sovet siyasi ideoloji yanaşmasından təmizlənməklə, baş vermiş ən son elmi metodik yeniliklərin elmi-ictimaiyyətə çatdırılması ilə onlar mövcud tabuları sındırmaqla, həm də təbii olaraq qısqanclıqlara da sinə gərməli oldular.

Burada "Pedaqoji sistemləri idarəetmənin mahiyyəti və əsas prinsipləri", "İdarəetmənin əsas funksiyaları", "Pedaqoji idarəetmə-menecment", "Məktəbdaxili idarəetmədə pedaqoji təhlili", "Məktəbi idarəetmənin funksiyaları", "İdarəetmədə məktəbdaxili nəzarət və tənzimləmə: Məktəbdə tədrisin təşkili"... məsələləri maraqla oxunur. Bu materialların hər biri nəşr edildiyi zamanın ən yeni mövzuları olaraq çox populyar idi. Obyektivlik naminə hələ də belədir.

Müntəxəbatda təkcə paytaxt alimlərinin əsərlərindən nümunələr verilməmiş, regionlarda yaşayan alim-pedaqoqların da əsərlərinə diqqət yetirilmişdir. Müntəxəbata Naxçıvandan AMEA-nın müxbir üzvü, əməkdar elm xadimi professor Oruc Həsənlinin, Gəncədən professor Şahin Tağıyevin, Şəkidən professor Firədin İbrahimovanın da əsərlərindən seçmələr daxil edilmişdir.

Müntəxabatın mündəricatındakı nöqsanın-seçmə mövzuların müəlliflərinin mündəricatda göstərilməməsi ilə bağlı, deməliyəm ki, 2020-ci ildə nəşr edilmiş "Ailə pedaqogikası: Müntəxəbat" dərs vəsaitinin (müəllif tərtibçilər: ***A.N. Abbasov, R.R. Məmmədzadə***) bu baxımdan müsbət nümunəsindən bəhs edərkən, oradakı bəzi seçmələrin elmi-pedaqoji ictimaiyyət üçün əhəmiyyətini nəzərə alaraq burada da verə bilər-

dik. Məsələn, “Ailə pedaqogikası: müntəxəbat”-dan professor Zahir Qaralovun “Tərbiyənin sağlam üçlüklər (3+3+3)” nəzəriyyəsi ilə bağlı “Tərbiyə” çoxcildliyindən verilmiş seçmənin “Pedaqogika: Müntəxəbat”da da nəzərə alınması aktuallıq baxımından vacib idi. Həmin materialdan qısa bir iqtibası verməyi vacib bilirik: “...Milli və bəşəri tərbiyə mədəniyyəti xəzinələrindən əldə etdiyimiz nəzəri və əməli nə varsa, onları dərindən öyrənməyə və ümumiləşdirməyə çalışdıq. Üç səviyyədə ümumiləşdirmələr apardıq.

*Birinci səviyyə.* Eyni sahəyə aid tərbiyə hadisələri arasındakı qarşılıqlı əlaqələrdən alman ümumiləşdirmələr.

*İkinci səviyyə.* Tərbiyə anlayışları arasındakı qarşılıqlı əlaqələrdən alman ümumiləşdirmələr.

*Üçüncü səviyyə.* Eyni sahələr üzrə tərbiyə qanunları (qanunauyğunluqları və prinsipləri) arasındakı qarşılıqlı əlaqələrdən alman ümumiləşdirmələr.

Birinci səviyyədə apardığımız ümumiləşdirmələr tərbiyə üzrə yeni anlayışların elmə gətirilməsinə və indiyə qədər bəlli olan anlayışların bir qisminin təkmilləşdirilməsinə imkan verdi.

İkinci səviyyədə apardığımız ümumiləşdirmələr yeni tərbiyə qanunlarının elmə gətirilməsi və indiyə qədər bəlli olan qanunların bəzilərinin dəqiqləşdirilməsinə kömək etdi.

Üçüncü səviyyədə apardığımız ümumiləşdirmələr əsasında yeni tərbiyə nəzəriyyəsi formalaşdıra bildik. Bunu **“Tərbiyənin sağlam üçlüklər (3+3+3) nəzəriyyəsi”** adlandırdıq.

Birinci üçlük tərbiyənin əsas mənbələri olan ailə, məktəb və ictimaiyyətin əlbir fəaliyyəti;

İkinci üçlük tərbiyənin məzmununu təşkil edən milli-mənəvi, ümumbəşəri və dini mədəniyyətlərin inteqrasiyasını;

Üçüncü üçlük tərbiyənin metodologiya və texnologiyalarını, hərəkətverici qüvvələrini əhatə edən insan təbiət-cəmiyyət qarşılıqlı münasibət və təsir mədəniyyətlərinin cəmini ifadə edir.

Tərbiyənin sağlam üçlüklər (3+3+3) nəzəriyyəsini belə ifadə edirik:

Kamil insan, sağlam ailə və cəmiyyət yalnız mənbəni ailə-məktəb-ictimaiyyət əlbirliyindən, məzmunu milli-mənəvi, ümum bəşəri və dünyəvi dini mədəniyyət nümunələrinin cəmindən, metodologiya və texnologiyaları çoxtərəfli insan təbiət cəmiyyət qarşılıqlı münasibətlər mədəniyyətindən yaranan tərbiyə sistemləri əsasın da yetişə bilər” (s. 266-267).

Bu məsələlər 44 günlük Vətən müharibəsində gənclərimizin ordumuzu elliklə dəstəkləməsi, sosial yekdillik nümayiş etdirməsi, nəhayət, onların müharibədə iştirak edən hissəsinin Vətən savaşında tarix yazmalarından bəhs edən Prezident, Ali Baş Komandan, cənab İlham Əliyevin ölkədə milli-vətənpərvərlik tərbiyəsinin genefondun mühüm tərkib hissəsini təşkil etməsini və ayrıca milli vətənpərvərlik tərbiyəsi ilə Milli Dövlət Strategiyasının hazırlanması tapşırığı da bu yanaşmanı ciddi-elmi postulat baza kimi nəzərə almağımızı aktuallaşdırır.

***Lalə Məmmədlinin*** “Şagirdlərin Azərbaycanın Milli Qəhrəmanları nümunəsində tərbiyə olunması” və “Vətən Müharibəsinə dair materiallar üzrə şagirdlərlə aparılacaq işlər”; ***Rəhiməxanım Məmmədzadənin*** “Şagirdlərdə düşmənə nifrət hissini formalaşdırılması” mövzularında yazdıqları erməni-faşist işğalçıları üzərində qələbəmizi işıqlandırır.

Əbdül və Hikmət Əlizadələrin iyirmi beşinci fəslin 4-cü seçməsi olaraq verilmiş “Azərbaycançılıq konspesiyası - dövrün əzəmətli fəlsəfəsi sosioloji və psixoloji hadisədir” xüsusilə ciddi elmi qənaətləri ilə seçilir. Müəlliflər yazırlar:

*XXI əsr Azərbaycan mədəniyyətində tərbiyə konsepsiyaları fundamental bir fəlsəfə ilə - azərbaycançılıq fəlsəfəsi ilə şöhrətlənir.

*Azərbaycançılıq elmə yeni daxil edilmiş anlayışdır, ən başlıcası Azərbaycan fəlsəfi-sosioloji, psixoloji və pedaqoji fikir tarixində yeni və önəmli konsepsiyadır.

*Azərbaycançılıq "etnik-mən" kimi şəxsiyyətin "Mən" konsepsiyasında önəmli sosial-psixoloji hadisədir və bənzərsiz Azərbaycan mədəniyyətinin köklü parametrlərini əks etdirir.

*Heydər Əliyevin əsərlərində Azərbaycan xalqının qüdrətli rəssam fırçası ilə vəsf olunmuş sosial-psixoloji portreti əzəmətlə səslənir: “Həm xalqımıza, həm də dünyaya bir daha nümayiş etdirək, sübut edək ki, xalqımız böyük istedada, elmi potensiala malikdir və bu nailiyyətlərimiz də dünya elminə özünə görə müəyyən töhfələr veribdir”.

*Azərbaycanı möhkəmləndirmək, qorumaq! Azərbaycançılıq konsepsiyasının başlıca fəlsəfi-sosioloji parafrazası belədir.

Azərbaycançılıq konsepsiyasının önəmli postulatları var. Onlardan bəziləri ilə təhsil və mədəniyyət kontekstində tanış olaq:

**I postulat**: Bizim vətəndaşlıq borcumuz milli-mənəvi dəyərlərimizə, doğma torpağımıza, doğma ana dilimizə, böyük və zəngin tariximizə, millətimizə sadiq olmaqdan ibarətdir.

**II postulat**: İndi bizim təhsil sistemimiz müstəqil Azərbaycanın gələcək inkişafını təmin etməlidir.

"Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir-cəmiyyət təhsilsiz inkişaf edə bilməz" (Heydər Əliyev).

**III postulat:** "Müstəqil Azərbaycanın gələcəyi gənclərin əlindədir, gənclərə veriləcəkdir. Ona görə də məktəbdə gənclərimizi nə qədər yaxşı, hərtərəfli hazırlasalar, müstəqil Azərbaycanın gələcəyi də o qədər müvəffəqiyyətli, uğurlu, parlaq olacaqdır" (s. 416-417)

Bizcə, müntəxəbatda hər bir pedaqoq alimdən ən aktual əhəmiyyətli seçmələrin verilməsi prinsipinə əsasən nail olunmuş, ölkənin elmi-pedaqoji pleyadasının son yarıməsrlik dövrdə irəli sürdüyü elmi-pedaqoji təşəbbüslərin geniş coğrafiyası yaradılmışdır.

Bu baxımdan professor ***Akif Abbasov,*** fəlsəfə doktorları ***Rəhiməxanım Məmmədzadə*** və ***Lalə Məmmədlinin*** gərgin zəhməti bahasına başa gələn "Pedaqogika: Müntəxəbat" dərs vəsaitini biz ciddi elmin pedaqoji təşəbbüs kimi dəyərləndiririk.

Ümumiyyətlə, bu tipli əsərlər çoxcildli olsa yaxşıdır. Həm də müəlliflər onların əsərləri, elmi aktuallıq səviyyəsi, materiallardakı novatorlıq nəzərə alınmaqla hazırlanmalıdır. Bu baxımdan müəlliflər də ədalət naminə deyək ki, işin öhdəsindən uğurla gəlmişlər.

Belə bir təşəbbüsü pedaqogika tarixi üzrə də başlamaq pis olmazdı.

Virtual texnologiyanın bəşəriyyətin gündəlik çoxşaxəli fəaliyyət sahəsinə çevrilməsi bir çox ənənəvi elmi nailiyyətlərə diqqəti azaltmış, insanlar gündəlik informasiyaların elektron aludəçilərinə çevrilmişlər. Bu baxımdam milli elmi-pedaqoji nailiyyətlərə yenidən nəzər salınmasını maarifçi arsenalımızın geniş mənzərəsinə rakurs etməklə, nəzər- pedaqoji irsimizə diqqəti cəlb etmək kimi vacib missiyanın öhdəsindən uğurla gəlinmişdir.

**Həsən Bayramov,**
*Bakı Dövlət Universitetinin professoru*
*pedaqogika üzrə elmlər doktoru*
*Pedaqoji və Sosial Elmlər Akademiyasının həqiqi üzvü*